**UOT 791.43**

**Ülkər Məcidzadə**
**Azərbaycan Dövlət Mədəniyyət və**
**İncəsənət Universiteti**
**AZ 1065, Bakı şəhəri, İnşaatçılar prospekti 39**
**E-mail:**azadova.aysu@mail.ru

# YOXSULLUQ EPİDEMİYASINA TUTULAN AİLƏNIN QARANLIQ DÜNYASI

**Xülasə**: Məqalədə İran kinosunda Yeni Dalğa cərəyanının banisi hesab olunan Dariyuş Mehrcuyinin filmi təhlil olunur. Müəllifin qənaətinə görə, rejisorun məhz bu filmindən sonra iranlı sənətkarlar anladılar ki, İran kinosunu dünya kinematoqrafiyasında təsdiq elətdirməkdən realizmi ekranlara daşımalıdırlar. Belə ki, İranın bir kəndində inəyinin ölməsi ilə metomorfoz keçirən kəndlidən bəhs edən film İran kinematoqrafiyasının da metomorfoz keçirməsinə səbəb oldu.

**Açar sözlər**: kino sənəti, kinoşünalıq, İran filmi, incəsənət, sənətşünaslıq.

Hər şey 1972-ci ildə "İnək" adlı İran filminin Venesiya Film Festivalında mükafat alması ilə başladı. Hətta bəzi tənqidçilərə görə, "bu film tarixi bir anı təmsil etməkdədir" (4, səh.38). İran kinosunda Yeni Dalğa cərəyanının banisi hesab olunan Dariyuş Mehrcuyinin məhz bu filmindən sonra iranlı sənətkarlar anladılar ki, İran kinosunu dünya kinematoqrafiyasında təsdiq elətdirməkdən ötrü özləri olmalı və mədəniyyətlərinə məxsus realizmi ekranlara daşımalıdırlar.

İranın bir kəndində inəyinin ölməsi ilə metomorfoz keçirən kəndlidən bəhs edən film İran kinematoqrafiyasının da metomorfoz keçirməsinə səbəb oldu. "Təfəkkürcə yeni bir kinematoqrafiyanın doğuluşundan xəbər verən bu filmdə dünyanın fəlsəfi, poetik dərkinə imkan verən İran kinosunun alleqorik pritçalara üz tutması ali məqsədin, ideyanın dəqiqliyi hesabına tamlığını faktın, hadisənin mahiyyət daşıyıcısı olan obrazlılığın bədii kəşf prinsipi ilə qazanan neorealizmin təntənəsinə çevrilir" (2, səh. 29). Bu andan etibarən başda Dariyuş Mehrcuyi olmaqla Məsud Kimyayi, Abbas Kiyarüstəmi, Möhsen Məxməlbaf, Cəfər Pənahi, Bəhmən Qobadi, Əsgər Fərhadi və başqa İran rejissorları hər cür qadağalara, basqılara rəğmən özlərinə tapınaraq, heç kimə oxşamadan filmlər çəkməyə başladılar. Necə başladılarsa 3 ilə 50-yə yaxın film çəkildi, kino ilə bağlı təhsil ocaqlarının sayı artdı və İran küçələrinin hər tinində əli kameralı gənclər görsənməyə başladı. Həmin bu gənclərdən biri də Səyid Rüstəyidir ki, 27 yaşında bir film çəkərək gələcəyinin parlaq olacağı zəmanətini bizə - seyrçilərə vermiş oldu.

İranın prestijli incəsənət universitetlərindən olan Sure Universitetinin rejissorluq fakültəsini bitirmiş Səyid Rüstəyinin 2016-cı ildə yaratdığı "Sonsuzluq və bir gün" (ilk

bədii) filmi Fəcr Beynəxalq Film Festivalı və Cenevrə Beynəlxalq Film Festivalı kimi müsabiqələrdə mükafatlandırılıb. Filmdə Murtaza obrazını ifa edən Peyman Maadini (Əsgər Fərhadinin filmlərindən tanıdığımız) Navid Məhəmmədzadə (Möhsen obrazı) və Pərinaz İzadyar (Somaya obrazı) kimi aktyorlar müşayiət etmişdir.

Birinci dəfə bu filmin adını eşidəndə ağlıma ilk olaraq yunan rejissoru Teodor Angelopulosun "Sonsuzluq və bir gün" filmi gəldi. Ancaq əminliklə deyə bilərəm ki, bu filmlər arasında heç bir oxşarlıq müşahidə edilmir. T.Angelopulosun filmində ölümcül xəstəliyə tutulmuş yazıçının ölümündən əvvəlki bir günündən bəhs edilir. Ancaq Səyid Rüstəyinin "Sonsuzluq və bir gün" ( farsca adı: "Abad va yek rooz") filmi yoxsulluq epidemiyasına yoluxan ailənin qaranlıq dünyasını göstərən realist filmlərdən biridir.

...Süfrələr çırpılır, ləmələr silinir, tozsovuranın zibili atılır, saat silinib asılır, güldana güllər qoyulur, köhnə paltarlar tullanılır, şkaflarda və soyuducularda artıq yeməklər qablarla birlikdə zibilə atılır, tutulmuş tualet təmizlənir, bacının şikəst pişiklərinə baxılır, xəstə ananın üst-başı dəyişdirilir, qardaşın narkotika ilə dolu otağı qüsursuz qatil səliqəsi ilə təmizlənir və bunların hamısını evin kiçik qızı Somaya edir.

Somaya isə ərə getməyə hazırlaşır. Kimə? Əfqanıstanda yaşayan, tanımadığı ailənin yeganə oğluna. Niyə belə uzağa? Çünki Tehranda onun ailəsi ilə heç kim qohum olmaq istəmir. Niyə? Çünki Somayanin ailəsi yoxsuldur və Onore de Balzak demişkən "Yoxsulluğun hökm sürdüyü yerdə nə utanma qalır, nə cinayət, nə namus, nə də ruh." Yoxsulluq hər bir kəsin həyatında bircə dəfə də olsa, yaşadığı bir sınaqdır. Ancaq təəssüf ki, bəzi insanlar bu prosesdən keçərkən mənəvi dəyərlərini itirib gedirlər. İnsan özündə olmayanı istər, arzular. Yoxsul da özündə olmayanı - pulu istər və ona çatmaq üçün çırpınar. Pulsuzluq insanı dəyişdirə, əvvəlki mənliyindən çıxara bilər. Yoxsulluq insanı bir anda oğru və caniyə çevirə, bütöv bir cəmiyyəti yararsız hala gətirə bilər. Yoxsulluğun hansı nəticələrə gətirib çıxaracağını göstərən Səyid Rüstəyi bağlı qapılar arxasında 4 bacı və 3 qardaşın bir - birinə olan münasibətlərini bizə - bağlı qapılar arxasında oturan kəslərə nümayiş etdirir. Filmdəki hadisələr və qəhrəmanlar daima bizə kimisə, nəyisə xatırladır. Elə bil, biz özümüzə baxırıq. Sanki bizi onlarla birləşdirən çox şey var. Qəhrəmanlarla bir ağlayıb, bir gülürsən və sonda onların real səhvlərinə baxmayaraq, heç kimi günahlandıra bilmirsən.

Somayanın bacısı sırf ərindən aliment alsın deyə, ikinci dəfə evlənmir, bir bacısı ərinin qan pulusu ilə özünə Dubaydan maşın alır, bir bacısı şikəst pişiklərə baxaraq pul qazanır, bir qardaşı narkotik alveri ilə məşğul olur, bir qardaşı isə bacısını tanımadığı bir ailəyə pul qarşılığında sataraq, özünə təzə restoran açır. Ailənin hər bir fərdi hər hansı yolla kasıblıqdan xilas olmağa çalışır. Ancaq anlamırlar ki; "Əsl yoxsulluq insanın daxili dünyasını görən və başa düşən birinin olmamasıdır" (7, səh. 224). Filmdə hərkəs özünə yol çəkir. Bu yolu isə daş kəsəkdən təmizləyən, toz olmasın deyə, süpürən, dəlik-deşik olan yerlərini yamaqlayan, çiçəklərlə süsləyən Somayadir.

Somaya isə ərə gedir. Əfqanıstanda yaşayan, tanımadığı zəngin bir ailənin yeganə oğluna. Somayanın onunla siğə ( ərəbcə "mut'a" - mənası "faydalanmaq", "istifadə etmək") kəbini kəsilib. Bu ailədə qadınlar sırf evdə qalmamaq üçün ərə gedirlər. Ona görə də onlar üçün kəbinin və ya ərin necə olub, olmamağının heç bir önəmi yoxdur. Həmçinin bu ailəyə elçi düşən də az olur. Somaya qəşəng qız olub 30 yaşına çatsa da, onun üçün qapını döyən – elçi gələn bir nəfər belə, olmayıb. İndi isə "bəxti açılıb". Özü də bir aylığına. O, bir ayın qarşılığında isə Somayaya hədiyyələr və qızıl bilərzik

verilmişdir (Somaya qardaşının onu pula satmasından xəbərsizdir). İndi Somayanin qarşısında iki seçim var: ya cəmiyyət tərəfindən qəbul edilməyən ailəsinin yanında qalmalı, ya da üzünü belə, görmədiyi imkanlı əfqan ailəsinə gəlin getməlidir. Ancaq Somayaya düşünmək üçün sonsuzluq və bir gün də verilmişdır. Somaya məsumcasına inanır ki, doğmaları onun evi tərk edəcəyindən qorxaraq, bəlkə də dəyişə bilərlər. O, hər şeyin yenidən atalı günlərindəki kimi olacağına ümid edir. Bir növ ailəsi üçün öz dəyərinin nə olduğunu qiymətləndirir. Bu müddətdə Somaya şəxsiyyət vəsiqəsini gizlədərək, ailəsinə oyun oynayır və bütün konfliktlər də bu səbəbdən yaranır. Çünki hərkəs öz xeyrinə qərar verməyə başlayır.

Atasız evin, yəni yiyəsiz evin iki qardaşı sanki taxt uğrunda mübarizə aparır. Peyman Maadi ( Murtaza) və Navid Məhəmmədzadə (Möhsen) filmdə yalnız obrazlarını deyil, həmçinin də aktyorluq məharətlərini də yarışdırırlar. Navid Məhəmmədzadənin ifası "Elli haqqında" və "Nadir və Simin, boşanma" filmləri ilə tanınan, bununla yanaşı 2014-cü il istehsalı olan Amerika filmi "X-Rey düşərgəsi"ndə müsəlman məhbus rolunu canlandıran Peyman Maadi kimi aktyorun kölgəsində qalmamış, əksinə, hər ikisinin olduğu xaotik səhnələr daha uğurlu görkəm qazanmışdır.

Keçmişinin izlərini gözlərinin altındakı qara torbalarda daşıyan Murtaza 40 ilin başında özünə sevgili tapır. Ancaq necə deyərlər, yoxsulluq qapıdan girəndə, sevgi pəncərədən qaçar. Murtaza bu qadını itirmək üçün hər yola əl atmağa qadirdir. Möhsen isə bu yolda ona ən böyük maneədir. Narkotika aludəçisi və alverçisi olan Möhsen qardaşının onu evdən uzaqlaşdırmaq istədiyini düşünür və bu səbəbdən də hərkəsə Murtazanın casusu kimi baxır. Adının mənası müjdə olan Navid isə bu qalmaqallı evin son beşiyidir. Gözlərindən ailəsi tərəfindən bəxş edilmiş kədərin əksik olmadığı bu uşaq sanki bir quzudur ki, canavarların arasına düşmüşdür. Somaya bu quzunun yeganə güvənc yeridir. Bu ailədə Navid və Somayadan başqa cəmiyyət tərəfindən qəbul edilə biləcək, seviləcək bir kəs yoxdur. Hər ikisi eyni taleni yaşayır. Biri qızlardan, biri də oğlanlardan axırıncısıdır. Hər ikisi su ilə dolan gəmini xilas etməyə çalışır.

Ancaq bir problem var - Somaya ərə gedir...

Özü də ömründə heç zaman üzünü belə, görmədiyi birinə. Çünki onun bilmədiyi bir şey vardır - qardaşının onu külli miqdarda pul qarşılığında satdığından xəbərsizdir. Somaya hədiyyələrini belə, açmağı özünə rəva bilmədiyi birinə sırf qardaşının borcunu təmizləmək üçün ərə gedir. Pəmbələrdə, bəyazlarda olan Somaya qardaşının xoşbəxtliyi uğrunda öz namusundan vaz keçməyə hazırdır. Bəlkə də qürbətdə vətəndəkindən daha yaxşı yaşayacağı ümidi ilə gedir. Ancaq maşına mindiyi anda tamaşaçı da onunla birlikdə qürbət yaşayır. Gözyaşlarını silərək maşının pəncərəsindən baxdıqda isə, unutduğu bir şeyi görür: onunla eyni taleni yaşamağa məhkum Navidi.

Bacısının – yeganə ümid yerinin getdiyindən xəbərsiz Navid qaranlıq həyətlərinə daxil olarkən isə ailəsi növbəti qurban kimi gözlərini ona zilləyir. Ancaq hər şey onların gözlədiyi kimi olmur. Qapı açılır. Müjdə (!) - Somaya içəri girir. Bu dəfə həm özünün, həm də Navidin xətrinə. Bu dəfə içəri daxil olanda o, daha təmizlik xəstəsi bir robot və ya maşın deyildi. O, artıq azad və Navidə nümunəvi olacaq bir kəs idi. Somaya içəri daxil olur və qaranlıq evin işıqlarını yandıraraq gözdən itir.

İmam Əlinin bu filmin mövzusuna çox uygun gələn bir deyimi vardır: "Yoxsulluq vətəndə qürbət, zənginlik isə qürbətdə vətəndir". Bəli, bu film cəmiyyət tərəfindən yadlaşan, sözün əsl mənasında doğma vətənlərində qürbətdəki tək əziyyət çəkən

insanların taleyindən bəhs edir. Bütün bunların səbəbi isə maddi və mənəvi yoxsulluqdan qaynaqlanır. Yaşının az olmasına baxmayaraq, Səyid Rüstəyinin bu filmi ən yaxşı İran filmlərinin siyahısına daxil ola bilmişdir. Onu da qeyd etmək lazımdır ki, yoxsulluqdan bəhs edən filmlər İran rejissorlarına milyonlar qazandırmaqda hələ də davam edir.

## Ədəbiyyat:

**Azərbaycan dilində**:

1. Dadaşov Aydın. Dünya kinosu örnəklər kontekstində. Bakı: Şərq - Qərb, 2016
2. Dadaşov Aydın. İran kinosunun inkişaf təmayülləri. Bakı: Elm, 2012.
3. Qafarova Gülşən. Ssenari yaradıcılığının əsas istiqamətləri. Bakı: Afpoliqraf, 2014.

**Türk dilində:**

4. Aktaş Cihan. Şark'ın şiiri İran sineması. İstanbul: İz Yayıncılık, 2015.
5. Dabaşi Hamid. İran sineması yakın çekim: Geçmişi, Bugünü ve Geleceği.. İstanbul: Agora Kitaplığı, 2013.
6. Laleh Abdolhossein. Modern İran sinemasında İran edebiyatının İzleri. İstanbul: Döst Mevsim Kitap, 2015.
7. Mustafa Sözen. İran Yeni Dalqa sinemasında varoluşsal temalar ve yönelimler.https://www.researchgate.net/publication/322919185_Iran_Yeni_Dalga_Sinemasinda_Varolussal_Temalar_Ve_Yonelimler/citation/download

**Rus dilində:**

8. Андре Базен . Что такое кино? . Москва: Искусство, 1972.

**Улькер Меджидзаде**

### Темный мир семьи зараженной эпидемией нищеты

### Резюме

В данной статье анализилируется фильм иранского режиссера Дариюш Мехрджуина. По мнению автора, именно после этого фильма иранские мастера кино искусства пришли к выводу, что необходимо внедрить направление реализма в экранное искусство. Таким образом, фильм в котором со смертью коровы бедный крестьянин переживает метаморфозы, привел к метаморфозу всего кинематографа Ирана.

**Ключевые слова**: киноискусство, киноведение, Иран, фильм, искусство, искусствоведение.

**Ulker Medjidzade**

### The dark world of a family infected by an epidemic of poverty

### Summary

This article analyzes the film of the Iranian director Dariyush Mehrjuin. According to the author, it was after this film that the Iranian masters of cinema art came to the conclusion that it was necessary to introduce the direction of realism into screen art. Thus, a film in which, with the death of a cow, a poor peasant undergoes metamorphoses, led to a metamorphosis of the entire cinema of Iran.

**Keywords**: cinematography, film studies, Iran, film, art, art history.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 04.04.2019**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 11.04.2019**
**Məqalənin çapa qəbul olunma tarixi: 13.05.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: fəlsəfə üzrə elmlər doktoru, professor Dilarə Mehdi**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**